# Milli hüquq elminin layiqli təmsilçisi

*Azərbaycanda uzun müddət hüquqşünas kadrların hazırlanmasının yeganə, hazırda isə əsas mənbələrindən biri olan Bakı Dövlət Universitetində hüquq elmi və təhsilinin inkişafında Məsumə xanım Məlikovanın əvəzsiz xidmətləri olmuşdur.*

*O, hüquq elmində ilk olaraq azərbaycançılıq ideyalarını təbliğ və inkişaf etdirmişdir.* M.F.Məlikova 1952-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsində elmi-pedaqoji fəaliyyətə başlamışdır. Sovetlər dövrü olsa belə, Azərbaycan siyasi-hüquq tarixinin ətraflı tədqiqi Məsumə Məlikovada azərbaycançılıq ideyalarının nə qədər güclü olduğunu göstərir. 1958-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "M.F.Axundovun ictimai-siyasi baxışları" mövzusunda namizədlik dissertasiyasını, 1973-cü ildə isə "XIX əsrin II yarısında - XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Sovet dönəmində və hazırda "Azərbaycan hüquq tarixi"nin əsas fənlər siyahısında geniş tədris edilməsi məhz Məsumə xanımın xidmətidir. Bu təcrübə keçmiş sovet respublikaları üçün nümunə olmuşdur.

1974-cü ildə professor elmi adını almış, 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Hazırda AMEA-nın hüquq üzrə yeganə müxbir üzvüdür. *Azərbaycanda milli siyasi və hüquqi təlimlər tarixi elminin banisi olmuş, bu sahədə məktəb yaratmış* Məsumə Məlikova 1968-ci ildən etibarən Bakı Dövlət Universitetinin hüquq fakültəsində Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasına uğurla rəhbərlik edir.

Kafedranın tərkibi 1960-cı illərin sonundan etibarən Məsumə xanımın səyi ilə elmə, pedaqoji fəaliyyətə böyük marağı olan yeni mütəxəssislərlə zənginləşmiş və bu, kafedranın elmi potensialının yüksəlməsinə gətirib çıxarmışdır.

Elmi potensialın qurulması və inkişafının əsasında bilavasitə alimin elmi ideyaları və tədqiqatları dayanır.

Məsumə xanım Məlikovanın elmi tədqiqatları ölkəmizdə hüquq elminin yeni istiqamətinin inkişafı üçün əsas qoymuş, hüquq üzrə tədris planına ilk dəfə "Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi", "Azərbaycanın dövlət və hüquq tarixi", "Müsəlman hüququnun əsasları" fənlərinin daxil edilməsi üçün mühüm baza yaratmışdır.



Kafedranın əməkdaşları tərəfindən tədris olunan bütün fənlər üzrə Azərbaycan dilində monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlanaraq nəşr edilmişdir: ilk dəfə Azərbaycan dilində "Dövlət və hüquq nəzəriyyəsi" 2 nəşrdə (M.F.Məlikova), "Hüquq nəzəriyyəsi" 3 nəşrdə (M.F.Məlikova), "Azərbaycanın siyasi və hüquqi nəzəriyyələr tarixi" (M.F.Məlikova, E.R.Bayramov); "Xarici ölkələrin dövlət və hüquq tarixi" 2 nəşri (M.F.Məlikova, E.Q.Nəbiyev); "Müasir dövlət və hüquq tarixi" (M.F.Məlikova, E.Q.Nəbiyev); "Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ" (M.F.Məlikova, X.C.İsmayılov); Антология правовых памятников Азербайджана. 17, 18 və 19-cu cildlər (M.F.Məlikova, X.C.İsmayılov, T.K.Zeynalova, Z.N.Əzimov); "Azərbaycanın dövlət və hüquq tarixi" (X.C.İsmayılov); "Azərbaycanda yerli özünüidarəetmənin normativ hüquqi əsasları" (genezisi və təkamülü) (X.C.İsmayılov) və s.

*M.F.Məlikovanın elmi tədqiqatları hüququn müxtəlif istiqamətlər üzrə praktik tətbiqində mühüm rola malik olmuşdur.* Məsumə xanım respublikamızda ilk dəfə olaraq 1991-ci ildə dərc edilmiş "Hüquq ensiklopedik lüğəti"nin baş redaktoru kimi böyük müəlliflər kollektivinə rəhbərlik etmiş və lüğətdə 85-dən artıq məqaləsi yer almışdır. Bununla yanaşı, tədris olunan bütün fənlər üzrə tədris proqramı və tədris-metodiki vəsaitləri tərtib olunmasını, kafedra müəllimlərinin əsərlərinin respublikadan kənarda nəşr edilməsinə mühüm istiqamət verilməsini Məsumə xanımın əsas fəaliyyət istiqamətlərindən biri kimi qeyd etmək lazımdır.

72 illik elmi-pedaqoji fəaliyyəti dövründə hüquqi təhsil prosesinin elmi bazasının zənginləşməsinə layiqli və əməli töhfə verən M.F.Məlikovanın elmi fəaliyyəti hüquqşünaslığın iki mühüm sahəsinin - siyasi və hüquqi təlimlər tarixinin və dövlət və hüquq nəzəriyyəsinin aktual problemlərinin tədqiqinə həsr edilmişdir. Alimin yaratdığı elmi məktəb də bu istiqamətlərə əsaslanır və hazırda kafedra öz fəaliyyətini bu yöndə davam etdirir. Məsumə xanım Məlikova 200-dən artıq elmi əsərin, o cümlədən monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin və elmi məqalələrin müəllifidir.

*Onun yeni nəsil hüquqşünas alimlərin hazırlanmasında əvəzsiz xidmətləri olmuşdur.* Ötən əsrin 60-cı illərindən etibarən M.F.Məlikovanın əsasını qoyduğu elmi məktəb müvafiq sahələr üzrə genişhəcmli tədqiqat işlərinin aparılmasına imkan yaratmışdır. Müxtəlif ölkələrin elmi dairələri ilə sıx əlaqələrə malik olan Məsumə xanım həm keyfiyyətli hüquqşünas kadrların yetişdirilməsinə, həm də dərin və əsaslandırılmış tədqiqat işlərinin aparılmasına layiqli töhfə vermişdir. Belə ki, M.F.Məlikovanın elmi rəhbərliyi ilə 30-dan artıq dissertasiya, o cümlədən 5 doktorluq dissertasiyası müdafiə edilmiş, həmçinin Suriya, İordaniya, Fələstin, Vyetnam və s. ölkələr üçün elmi kadrlar yetişdirilmişdir.

Ölkəmizdə və onun hüdudlarından kənarda (İngiltərədə, Şotlandiyada, Kanadada, ABŞ-da, Moskvada, Tiflisdə, Kiyevdə və s.) keçirilmiş beynəlxalq elmi-praktik konfranslarda çoxsaylı elmi məruzələrlə çıxış edən alim milli hüquq elmini də layiqincə təmsil etmişdir.

Məsumə xanım Məlikovanın rəhbərlik etdiyi kafedranın əməkdaşları respublikanın ictimai həyatında fəal iştirak etmiş və hazırda da bu proses davam etdirilir. Azərbaycanın dövlət-hüquqi quruculuğu, ölkə qanunvericiliyinin formalaşması və inkişafında bu tarixi prosesdən kənarda qalmamışlar. Məsumə xanım Məlikova "Azərbaycanın suverenliyi haqqında" 23 sentyabr 1989-cu il Konstitusiya qanununu tərtib edənlərdən biri, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi 1978-ci il Azərbaycan SSR Konstitusiyasının və 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması üzrə Komissiyanın üzvü olmuşdur.



İttifaq dövründə Sovet siyasi elmlər Assosiasiyası İcraiyyə Komitəsinin, SSRİ və Azərbaycan SSR Təhsil nazirliklərinin hüquq elmləri üzrə tədris-metodiki şuralarının üzvü, Azərbaycan SSR Təhsil Nazirliyinin elmi-metodik şurasının elmi katibi, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının yarandığı gündən 1998-ci ilədək iqtisadi, fəlsəfə və hüquqi elmlər üzrə Problem Şurasının sədri və Ali Attestasiya Komissiyasının Plenumunun üzvü, Azərbaycan SSR Prezident Şurasının üzvü (1990), AMEA-nın nəzdində Hüquq Elmləri üzrə Ekspert Şurasının sədri olmuş, AMEA-nın humanitar və ictimai elmlər bölməsi bürosunun və AMEA-nın Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının hüquqşünaslıq bölməsinin, Respublika Prokurorluğu yanında Elmi-Məsləhət Şurasının və Respublika Ali Məhkəməsinin Elmi-Məsləhət Şurasının üzvü, Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən hüquq üzrə dissertasiya şuralarının sədri olmuş, hazırda isə FD 2.44 Dissertasiya Şurasının üzvüdür.

M.F.Məlikova respublikamızda və onun hüdudlarından kənarda bir çox elmi jurnalların - Rusiya Federasiyasında nəşr edilən "История государства и права", Azərbaycan-Rusiya müştərək "Международное право и сравнительное право", "AMEA-nın Xəbərləri" jurnalının tarix və hüquq elmləri seriyasının, AMEA-da "M.F.Axundzadə Ensiklopediyası"nın hazırlanmasına dair redaksiya heyətinin üzvü, "Hüquqi dövlət və qanun", "Dövlət və hüquq", "Hüquq+Gənclik" jurnallarının redaksiya heyətlərinin üzvü olmuş, 30 ildən artıq müddətdə "Bakı Universitetinin Xəbərləri" jurnalının sosial-siyasi elmlər seriyasının redaktoru, "Beynəlxalq hüquq və inteqrasiya problemləri", "Polis Akademiyasının Elmi Xəbərləri"nin və s. jurnalların redaksiya şuralarının üzvüdür.

*M.F.Məlikovanın elmi-pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş,* dövlət orqanları və ictimai təşkilatlar tərəfindən çoxsaylı mükafatlara layiq görülmüşdür. Belə ki, M.F.Məlikova "Azərbaycan Respublikasının əməkdar hüquqşünası" fəxri adı (1969), "Şərəf nişanı" ordeni (1976), "Şöhrət" ordeni (2000), "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2019), "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı (2024), Azərbaycan Respublikası Təhsil Nazirliyinin fərqlənməyə görə döş nişanı; Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) yubiley medalı (2019); SSRİ Ali Sovetinin Rəyasət Heyəti adından Azərbaycan SSR Ali Soveti "Əmək veteranı" medalı (1985); Azərbaycan SSR Elmlər Akademiyasının birləşmiş veteranlar Şurasının "Veteran Sovetinin medalı" (1997), Bakı Dövlət Universitetinin 75 illiyi münasibətilə "Xatirə" medalı (1994), Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Xatirə" medalı (2009); Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fərqlənməyə görə" döş nişanı (2009), elm və dövlət orqanları tərəfindən (AMEA, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və s.) çox sayda fəxri fərmanlarla təltif edilmişdir. Dəfələrlə elmi və pedaqoji göstəricilərinə görə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə "İlin alimi" fəxri adına layiq görülmüşdür. M.F.Məlikovaya Azərbaycan Respublikası Prezidentinin 2009-cu il Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Məsumə xanım Məlikova hazırda Bakı Dövlət Universitetinin Hüquq fakültəsində Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasına və özünün yaratdığı elmi məktəbə uğurla rəhbərlik edir. Azərbaycan hüquqşünasları M.F.Məlikova ilə fəxr edirlər. O, bütün ömrünü və fəaliyyətini Azərbaycan hüquq elmi və təhsilinin inkişafına həsr etmişdir. Bu fəaliyyətin nəticələri uzun müddət hüquq elmi və təhsilinin inkişafında baza rolunu oynayacaq.

**Əmir ƏLİYEV,**
**hüquq elmləri doktoru,**
**professor.**